## AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI

## SƏRƏNCAM

**15 may 2026-cı il** **10-1/3-3-20/2026**

**Qabaqcıl auditorların apardıqları auditlər əsasında ustad dərslərinin keçirilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2026-cı il üzrə iş planının 10.3.4-cü “Qabaqcıl auditorların aparmış olduqları auditlər əsasında ustad dərslərinin keçirilməsi” bəndinin icrasını təmin etmək, auditorların peşə bilik və bacarıqlarının artırılması, qabaqcıl audit təcrübəsinin tətbiqinin genişləndirilməsi və peşəkar təcrübə mübadiləsinin təşviqi məqsədilə Palatanın üzvlərinin təkliflərini nəzərə alaraq Kadr hazırlığı idarəsi (E.Hacıyeva) tərəfindən hazırlanmış “Qabaqcıl auditorların apardıqları auditlər əsasında ustad dərslərinin keçirilməsinə dair qrafik”in layihəsini nəzərdən keçirərək **qərara alıram:**

1. “Qabaqcıl auditorların apardıqları auditlər əsasında ustad dərslərinin keçirilməsinə dair qrafik” təsdiq edilsin (əlavə olunur).

2. Kadr hazırlığı idarəsinə (E.Hacıyeva, E.İsayeva) tapşırılsın ki:

2.1. bu sərəncamın və təsdiq edilmiş qrafikin məruzəçilərə çatdırılmasını təmin etsinlər;

2.2. ustad dərslərinin təşkili, iştirakçıların məlumatlandırılması və aidiyyəti koordinasiya işlərini həyata keçirsinlər.

3. Məruzəçilərə (R.Əliyev, N.Abbaslı, S.Tağıyeva, Ş.Kərimov, C.Həsənov, N.Axundov, Q.Əhmədov, Y.Şirinov, E.Əkbərov, A.Əliyev, V.Talıbov, Ə.Aslanov, İ.Süleyman) tapşırılsın ki:

3.1. qrafikdə nəzərdə tutulmuş ustad dərslərinin yüksək keyfiyyətlə və müəyyən edilmiş müddətlərdə keçirilməsini təmin etsinlər;

3.2. ustad dərslərinin mövzularına dair qısa şərh və təqdimat materiallarını tədbirin keçirilmə tarixindən ən geci iki gün əvvəl Auditorlar Palatasına təqdim etsinlər;

3.3. Təlim materiallarının beynəlxalq audit standartlarının tələblərinə və qabaqcıl peşəkar təcrübəyə uyğun hazırlanmasını təmin etsinlər.

4. İctimaiyyətlə əlaqə və informasiya şöbəsinin müdiri (M.Hüseynova) tapşırılsın ki, keçirilmiş ustad dərsləri ilə bağlı press-relizin iki gün müddətində hazırlanaraq rəhbərliyə təqdim olunmasını təmin etsin.

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/jpVhKP%2BWOyAzejmb7Js1q9Nl6EFO0H43ScfXM%2FEFZ50%3D

5. Daxili nəzarət və komplayens şöbəsinə (Z.Almazov) tapşırılsın ki, ustad dərslərinin nəticələrinə dair hazırlanmış press-relizin Auditorlar Palatasının internet səhifəsində və sosial şəbəkələrdəki səhifələrində yerləşdirilməsini təmin etsin.

6. Bu sərəncamın icrasına nəzarət Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Q.Bayramova həvalə edilsin.

7. Bu sərəncamın və qrafikin mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/jpVhKP%2BWOyAzejmb7Js1q9Nl6EFO0H43ScfXM%2FEFZ50%3D